# İnkişafetdirici təlim mühitində Azərbaycan tarixinin tədrisində formalaşdırılan kompetensiyaların mahiyyəti

**Aygün İlyar qızı İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** teachermemmedzadeh1026@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** Azərbaycan tarixi, inkişafetdirici təlim, kompetensiya, təlim prosesi
**Ключевые слова:** история Азербайджана, развивающее обучение, компетенция, процесс изучения
**Key words:** history of Azerbaijan, developmental training, competencia, learning process

Müasir dövrdə respublika məktəblərində şəxsiyyətyönlü və inkişafetdirici təhsil sistemi tətbiq olunur. Bu təhsil şagirdlərdə bilkilərin, bacarıqların, intellektin, iradənin, emosiyaların, motivlərin və digər idrak xüsusiyyətlərinin formalaşdırılmasını nəzərdə tutur.

İnkişafetdirici təlim elə tətbiq olunmalıdır ki, tapşırıqları yerinə yetirmək arzusu və stimulu yaratsın. Olduqca sadə və eyni zamanda çətin tapşırıq marağı azaldır. Çətin, lakin yerinə yetirilməsi mümkün olan tapşırıq şagirddə öz imkanlarına inam formalaşdırır. Onun şəxsiyyət kimi formalaşmasına motiv yaradır.

Respublikamızda təhsil sistemi təlim prosesinin innovativ təşkili və bununla bağlı olaraq keyfiyyətin yüksəldilməsinə yönələn qərarların qəbulu ilə xarakterizə olunur. Bu baxımdan təhsilverənlərin təhsil kompetensiyalarına, onların tətbiqi və formalaşdırılmasına xüsusi diqqət yetirilməsi vacib məsələlərdəndir (1, s. 154).

Müasir dövrdə kompetensiya anlayışı metodologiya və didaktikada, eyni zamanda orta məktəb və ali təhsil proqramlarında geniş istifadə olunur. Latın dilindən tərcümədə - c*ompetentia* – bilik və bacarıqları birləşdirən xüsusiyyət kimi ifadə edilir. Kompetensiya ilk dəfə 1965-ci ildə N. Homski tərəfindən dilçilik sahəsində tətbiq edilmişdir.

Araşdırmalar zamanı kompetensiyanın inkişaf tarixini aşağıdakı kimi müəyyən edə bilərik:

✓1959-cu il — kompetensiya bir nəzəriyyə olaraq hazırlanmışdır.

✓1970-ci il — kompetensiya koqnitiv psixologiyanın predmetləri sırasına daxil edilmişdir.

✓1990-cı il kompetensiya təhsil sahəsinə daxil edilmişdir.

✓1996-cı il Bern şəhərində “Avropa təhsil sistemində kompetensiya“ adlı simpozium təşkil edilmişdir.

✓2002-2017-ci illərdə müasir təhsil sistemində tam olaraq kompetensialar tətbiq edilmişdir (2, s. 9).

Təhsilverənlər kompetensiyaların müasir təhsil texnologiyaları ilə sıx bağlı olduğuna diqqət yetirməlidir. Təlim prosesində kompetensiyaların formalaşması təhsilverənlərdən xüsusi bilik bazasının olmasını tələb edir.

Kompetensiyalar aşağıdakı açar sözlərlə xarakterizə olunur:

❖ Düşünmək - informasiyanı mənimsəmək, informasiyalararası əlaqəni müəyyən edə bilmək, diskussiya zamanı bu informasiyadan istifadə etmək bacarığı

❖ Əməkdaşlıq – müstəqil olaraq qərar qəbul etmək, qrupda işləmək, müəyyən öhdəlik-

lərə yiyələnmək bacarığı

❖ Təşkilatçılıq – Qrupun, eyni zamanda müstəqil olaraq müəyyən işləri təşkil etmək bacarığı

❖ Adaptasiya - İKT-dən istifadə etmək bacarığı, yenilikləri tətbiq etmək bacarığı (3, s. 302).

Bu təlim kompetensiyaları tarixin interaktiv təşkilini xarakterizə edir.

Pedaqoji elmlər doktoru, Beynəlxalq Pedaqogika Akademiyasının akademiki A.V. Xutorskoy təlim prosesinin kompetensiyalarını aşağıdakı kimi müəyyən etmişdir:

1. Qiymətləndirmə
2. Ümumiləşdirmə
3. Öyrədici
4. İnformasiyalaşdırıcı
5. Kommunikativ
6. Sosial - əmək
7. Şəxsi inkişaf (3, s. 304).

Təhsil kompetensiyaları şagirdlərə təkcə biliklər qazandırmır, eyni zamanda onlarda şəxsiyyətin inkişafına səbəb olur. Kompetensiyalar təlim prosesinin sistemli təşkilində əsas rol oynayır. Çünki, kompetensiya bilik, dəyər, keyfiyyətlə bağlı olan bacarıqlar sistemidir.

Bəzi tədqiqatlarda kompetensiya şəxsi psixoloji xüsusiyyət kimi qeyd edilir. Lakin, bəzi tədqiqatlar göstərir ki, kompetensiya təkcə psixoloji xüsusiyyət deyil, ümumi bacarıq normalarının olduğu keyfiyyət sistemidir.

Kompetensiya şagirddə müasir dövrün tələblərinə uyğun bacarıqların, yaradıcı qabiliyyətlərin formalaşdırılmasına xidmət edən bir sistemdir. Şagird üçün kompetensiya onun gələcək inkişafına istiqamət verən bir qüvvədir. Çünki, bu sistem şagirdlərdə gələcəyə hazırlıq, müstəqil işləmək bacarığının inkişafına xüsusi diqqət yetirir.

Bəzi tədqiqatçılar qeyd edir ki, kompetensiyalar nə didaktik, nə də pedaqoji baxımdan heç bir aktuallıq daşımır. Bilik, bacarıq, vərdişlər və s. didaktikanın elementləri arasında daim mövcud olmuşdur. Təlim prosesində sistemliliyin yaranması kompetensiyanın funksiyaları arasındadır. Bununla yanaşı, öyrənilmiş biliklərin praktikaya tətbiqi bacarığı da kompetensiyanın funksiyalarına daxildir. Kompetensiyaların yaradıcılığı inkişaf etdirmək funksiyası da var. Təlim kompetensiyalarının əsas funksiyalarını və onun rolunu aşağıdakı kimi ümumiləşdirə bilərik:

✓ Ümumtəhsil sistemində iştirak edənlərin, təhsilalanların gələcəyə hazırlanması

✓ Şəxsi ideyaların təlim prosesində reallaşmasına təkan vermək, imkan yaradılması

✓ Real obyektlər üzərində tədqiqat aparılaraq bilik, bacarıq və vərdişlərin inkişafına şərait yaradılması

✓ Biliklərin konkretləşdirilərək praktikada tətbiq etmək bacarığı

✓Predmet elementlərinin təlim prosesinə tətbiq olunması

✓ Nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi nəticəsində konkret qərarların qəbul olunması

✓ Şəxsiyyətin şəxsi və sosial baxımdan təlim prosesində formalaşdırılmasının həyata keçirilməsi (4, s. 57).

Beləliklə, şagirdlər üçün əlavə addımların atılması, tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunmasının təşkil edilməsi, bu məqsədlə müəllimin şagirdlərin şüurunu hərəkətə gətirməsi, onları düşünməyə,fikir yürütməyə vadar etməsi, onların diqqətini öyrənilən hadisələrdə səbəb-nəticə əlaqələrinə yönəltməsi, müəllimin rəhbərliyi ilə şagirdlərin müəyyən əqli

nəticələr çıxarması və s. Bu kimi məsələlər kompetensiyaların intensiv şəkildə formalaşmasına kömək edir.

Nəticədə şagirdlər idrak əməliyyatları olan müqayisə, təhlilə, ümumiləşdirməyə, mücərrədləşdirməyə daha çox müraciət etməli olurlar.

Əsas kompetensiyalar aşağıdakılardır:

— İnsanlar ana dilində ünsiyyət qura bilməlidirlər

— Ən azı bir xarici dildə ünsiyyət qurub danışa bilməlidirlər

— Riyazi savadı olmalıdır

— Elm və texnologiyada sadə və mürəkkəb bacarıqlara sahib olmalıdır məsələn kompüter proqramını bilməsi, slayd qura bilməsi və s.

— Sosial və vətəndaşlıq kompetensiyaları olmalıdır

— Yenilik və sahibkarlıq hissi kompetensiyaları olmalıdır

— Müstəqil öyrənmə kompetensiyaları olmalıdır (əgər bu bacarığı olmazsa digər bacarıqları mənimsəməkdə çətinlik çəkə bilər).

— Texniki kompetensiya-şagird gördüyü işin əsas tərkib hissəsini müəyyən etməyi bacarmalıdır

— Davranış kompetensiyası (şəxsi keyfiyyətlərin təsviri üçün nəzərdə tutulan bacarıqdır)

— Siyasi və sosial kompetensiyalar oz üzərinə məsuliyyət götürmək bacarığı birgə qərar qəbul etmək bacarığı və s. kimi bacarıqlar formalaşmalıdır

— Çoxmədəniyyətli cəmiyyətin həyatı ilə əlaqəli kompetensiyalar (tolerantlıq, irqi ayrı-seçkiliyə qarşı və s.) inkişaf etməlidir

— Şifahi və yazılı ünsiyyətdə kompetensiyalar (orta təhsilli insanın ictimai həyatda şifahi və yazılı ünsiyyət hazırlığını bildirən bacarıqlar)

— İKT sahəsində kompetensiyalar (informasiya texnologiyalarını tətbiq etmək, reklam vasitəsilə yayılan xəbərlərə tənqidi yanaşma bacarığı) (5, s. 14).

Metakompetensiyalar (əsas bacarıqlardan əlavə, şagirddə daha da böyük bacarıqların formalaşması):

— Tənqidi təfəkkür (məsələn, sinifdə müzakirə olunan mövzuya şagirdin yanaşması);

— Yaradıcı yanaşma (şagirdin mövzuya daha yaradıcı yanaşaraq onu dərk etməsi);

— Təşəbbüskarlıq (şagirdin bilik ehtiyatını toplaması, fürsətləri qiymətləndirməsi, insanların ictimai ünsürlər kimi faktorlar onların təşəbbüskarlıq səviyyəsinə təsir edir. Dövlətin təşəbbüskarlığı isə cəmiyyəti canlandırmaq və dəstəkləmək üçündür);

— Problemlərin həlli (insanın problemin həlli yolunu daha tez və sadə yolla tapmağa qadir olması);

— Riskin qiymətləndirilməsi (çox risk edən insan riski daha rahat qiymətləndirməyə qadir şəxsdir);

— Qərarların qəbul edilməsi (doğru qərar verənlər qərarları daha rahat qəbul etməyi bacarırlar);

— Hisslərin konstruktiv (qurucu) idarə edilməsi (insanların ağılla hərəkət etməsi, özündən tez çıxması, hisslərini çilovlaya bilməsi, hərəkətlərinə daha çox diqqət göstərməsi və s.).

Kompetensiya anlayışı kurikulumun inkişafının əsasıdır. Kompetensiya bilik, bacarıq və dəyərlərin düzgün şəkildə tətbiq edilməsidir. Təhsilalanların biliyi, bacarığı və dəyərlərini real həyatın ehtiyaclarına tətbiq etmək kompetensiyanı xarakterizə edir.

**Məqalənin aktuallığı.** İnkişafetdirici təlim mühitində Azərbaycan tarixinin tədrisində formalaşdırılan kompetensiyaların mahiyyətinin aydınlaşdırılması nöqteyi-nəzərindən məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Kompetensiyanın təsnifatı, inkişaf tarixi müəyyənləşdirilərək mahiyyətinə aydınlıq gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikirlər və əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirməklə yanaşı, şagirdlərdə bilik və bacarıqların inkişaf etdirilməsi prosesində müəllimlər və pedaqoji ixtisaslı kadrlar üçün faydalı ola bilər.

## Ədəbiyyat


1. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal interaktiv təlim metodikası. Bakı, 2014, 704 s.
2. Хуторской А.В. Модель компетентного образования. \ ПЕДАГОГИКА 2017, №9.
3. Мусаев Д. Методика преподавания истории. Баку, 2021, 638 с.
4. Хуторской А.В. Ключевые компетенции как компонент личностно- ориентированного образования.\\ Народное образование, 2003, № 2, стр.58-64.
5. Хуторской А.В., Хуторская Л.Н. Компетентность как дидактическое понятие: содержание, структура и модели конструирования. \\http:\\khutorskoy.ru \\2004


**А.И. Исмаилова**

## Сущность компетенций, формируемых при преподавании истории Азербайджана в развивающей среде обучения

## Резюме

В статье рассматривается использование компетенции в преподавании истории Азербайджана, сущность и виды компетенции. При этом отмечалась история и развития компетенции.

**A.I. Ismayilova**

## The essence of the competencies formed in the teaching of the history of Azerbaijan in the developmental learning environment

## Summary

The article discusses the use of competence in the teaching of Azerbaijani history, the essence and types of competence. At the same time, the history and development of the competence was noted.

**Redaksiyaya daxil olub:** 19.04.2022